**MƏDƏNİYYƏT DÜNYASI**
Elmi-nəzəri məcmuə
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,
XXV buraxılış, Bakı, 2013

**МИР КУЛЬТУРЫ**
Научно-теоретический сборник
Азербайджанский Государственный Университет Культуры и Искусств,
XXV выпуск, Баку, 2013

**THE WORLD OF CULTURE**
Scientific-theoretical bulletin
Azerbaijan State University of Culture and Art, XXV edition, Baku, 2013

**UOT 76**

***Nərgiz Məmmədova***
***Baş müəllim***
***Azərbaycan Dövlət Rəssamlıq Akademiyası***
***AZ-102, Bakı. Heydər Əliyev prospekti, 58***
***Email***: ss57@list.ru

# TƏSVİRİ İNCƏSƏNƏTDƏ ESTAMP

**Xülasə:**Məqalədə estampın təsviri incəsənətdə tarixi inkişafından informasiya təqdim olunur. Eləcə də qravüranın müxtəlif növləri və çap metodları, xüsusilə də estampın üslublarından biri olan litoqrafiya haqqında məlumat verilmişdir.

**Açar sözlər:** təsviri sənət, qrafika, qravüra, dəzgah, daş, linoqravüra.

Q r a f i k a — təsviri incəsənətin ən qədim növüdür. İlk qrafik təsvirlər insan cəmiyyətinin yarandığı dövrlərdən (neolit və tunc dövrü) mövcud olmuşdur.

Rəsmlər əsasən qayalarda, mağara divarlarında, heyvanların sümüklərində, hətta dərilərində belə təsvir olunardı. Bu rəsmlər qrafika sənətinin başlanğıcı hesab edilir və adətən, onlar konkret bir məna daşıyar, həm də müəyyən informasiya rolunu oynayardı.

İcra texnikasına görə qrafika sənəti iki hissəyə ayrılır: rəsm və dəzgah qrafikası. Rəsm — qrafikanın ən qədim növlərindən biridir. Karandaşla (sulu boya, sangina, pastel, tempera və s. daxil olmaqla) işlənilən rəsm, əsasən, kağız, bəzən isə parça üzərində yaradılır. Dəzgah qrafikasından fərqli olaraq bu rəsmlər yalnız bir nüsxədə ola bilir.

Beləliklə, təsviri incəsənət — ətraf mühitin dərk edilməsində, estetik zövqün formalaşmasında, insanın hər hansı hadisəyə olan fikirlərini, hiss və duyğularını ifadə etmək üçün bir vasitədir. Tarix boyu tamamilə müxtəlif, bir-birindən fərqli çoxsaylı incəsənət növləri mövcud idi və hər bir incəsənət növü cəmiyyətdə inkişafı üçün özünəməxsus iş metodlarını yaratmışdır.

Müasir qrafika incəsənəti də öz inkişaf tarixində növlərinə görə əsasən 4 qrupa ayrılır**:**

| | |
|---|---|
| | *Dəzgah qrafikası* |
| | *Kitab qrafikası* |
| | *Tətbiqi qrafika* |
| | *Plakat* |

Bu sistem əsasında dəzgah qrafikasında estampın özünəməxsusluğundan və onun növlərindən biri olan – litoqrafiyanın yaranma tarixindən, bu texnikada yaddaqalan əsərlər yaratmış görkəmli sənətkarların həyat və yaradıcılıqları ilə tanışlıq, litoqrafiyanın texnologiyası və iş metodlarından, müasir həyatımızda litoqrafiyanın poliqrafiya işlərində inkişaf və rolundan bir çox sözlər demək olar.

Dəzgah qrafikasının geniş və əsas bölmələrindən biri estamp sayılır. Estampın xüsusiyyətlərini dərindən anlamaq üçün estampa mənsub olan çap (basma, möhür) prinsiplərinə diqqət yetirmək lazımdır. Rəssam möhkəm material üzərində (litoqrafiya daşlarında, taxta lövhədə, metal müstəvidə, linoleumda və s.) çap forması (basma, möhür) yaradır və bədii əsərlərin basılmasını həyata keçirir — estampı yaratmağa başlayır. Mətbəədə plakatların, illüstrasiyaların, etiketlərin, reproduksiyaların basılması üçün xüsusi aparatlarla rəssamın orijinal əsəri əsasında fotomexanika üsulu ilə çap forması hazırlanır. Bu cür çap forması tipoqrafiya möhür forması və ya aparat möhür forması, ondan vurulan möhür isə tipoqrafiya möhürü, yaxud poliqrafiya möhürü adlanır.

Estamp üsulunda istifadə olunan, müəllif-rəssam tərəfindən yaradılmış "möhür" forması — müəllif möhür forması (mətbəə möhüründən fərqli olaraq) bədii möhür adlanır. Çap formasının hazırlandığı materialdan (litoqrafiya daşı, ağac, metal, linoleum və s.) asılı olaraq müxtəlif estampların yaranma üsulları qrafika texnikası adlanır. Geniş yayılmış qrafika texnikalarına ksiloqrafiya, ofort, litoqrafiya və linoqravüra aiddir. Qrafikada üç çap növündən istifadə edilir: hündür və ya qabarıq — ksiloqrafiya və linoqravürada; dərin — ofortda; hamar, səthi çap isə — litoqrafiyada.

Linoqravüra, ksiloqrafiya, ofort, litoqrafiya — qrafikanın qravüraya aid bu növləri ümumi bir ad altında birləşərək estamp adlanır. "Estamp" sözünün mənası fransız dilində "estampe" — çap etmək, ştamp (damğa) vurmaq (basmaq) deməkdir. Estampı yəni hər hansı bir qravüranın digər təsviri sənət növlərindən fərqləndirən cəhət isə, onun material üzərində işlənməsi(taxta, dəmir, linoleum, karton və s.) xüsusi boya və çap dəzgahları vasitəsilə kağız üzərinə köçürülməsidir. Tiraj bir neçə nüsxə və ya yüzlərcə olur, hər bir çap olunmuş qrafik əsər, yəni estamp (qravüra) vərəqi işin əsli sayıla bilər. Belə olan halda təsviri sənətdə estamp üsulu ilə yaranan əsər sərbəst sənət əsəridir və qrafikanın yuxarıda qeyd etdiyimiz üç əsas çap növü vasitəsilə yerinə yetirilir. İlkin olaraq, təsviri sənətdə estamp işləri reproduksiya xarakterli bir vasitə kimi qəbul olunur.

Reproduksiya — hər hansı bir sənət əsərindən dəqiq təsvir və təsəvvür yarada bilmədiyi üçün o yalnız həmin əsərin mövcudluğunu yada salmağa xidmət edir. Zaman keçdikcə estamp zəngin texniki imkan və ənənələrinə görə müəyyən səviyyəyə çataraq təsviri sənətin sərbəst növü kimi inkişaf edir. Estampın özünəməxsusluğu — bu üsulla yaranan hər bir çap vərəqinin ayrı-ayrılıqda sərbəst sənət əsəri olmasındadır. Rəssam (müəllif) tərəfindən yaranan həmin sənət əsəri işin orijinalı (əsli)sayılır.

Tirajın bolluğu, çox böyük olmayan format — bütün bunlar estampı müasirləşdirərək ona həyatın bütün sahələrinə sirayət etməyə imkan verir. Müasir cəmiyyətdə mənzil, mehmanxana, kitabxana, kafe və restoranları, sərgi salonlarını, müxtəlif interyerləri estampsız yəni qravüralarsız təsəvvür etmək mümkün deyildir.

Bəs qravüra təsviri sənətə də özünü necə təsdiqləmişdir ?

Qravüranı hiss etmək və başa düşmək üçün biz onun ta qədimdən, XX əsrin əvvəlinə qədər olan tarixinə nəzər salmalıyıq. Bu tarix — taxta və dəmir üzərində yonmadan, litoqrafiyadan(daş üzərində çap) və digər çətin və qarışıq qravüra növlərindən ibarətdir.

İlk qravüraya b.e. əvvəl IV əsrdə, şərqdə, Cin təsviri incəsənətində rast gəlinir. O dövrdə qravüra — tətbiqi incəsənət növü kimi damğa və bir çox bütpərəstlərin ehramlarında, rəngli parçaların üzərinə möhür vurulmaqla öz həllini tapırdı. Avropada isə təxminən XV – XVI əsrlərdə, taxta lövhələrdən çap olunmuş oyun kartları mövcud idi. Taxta üzərində ilk qravüra Almaniyada,

1423-cü ildə yaranmışdır. Qravüranın sərbəst incəsənət növü kimi inkişafına təkan verən amil bu dövrün tələbi idi.

Tarix dərslərindəki şərhlərdə bu dövr elm, incəsənət və maarifin inkişafını cəmiyyətə, xalqa çatdırmaq zərurətinin yaranması kimi qeyd olunur. Kitabların çapı üçün mətbəə dəzgahlarının ixtirası da bu dövrdə əsaslı surətdə inkişaf etdirilirdi. Dini mövzularda kitab və qravüra işləri, coğrafi xəritələr, əlifba, texniki rəsm və s. gapı uçun nəzərdə tutulan taxta üzərində qravüra, mis və ofort qravüralardan silah və metal məişət aşyaların bəzənməsində, hətta qəbir daşları yazılarında istifadə olunurdu.

XV – XVI əsrlərdə Qərbi Avropada rəngkarlıq və rəsm ilə yanaşı qravüra da inkişaf edirdi. Lakin rəssamlar əsasən kəsilən və cızılan daha çox üstünlük verirdilər. Holland incəsənətində bu novun inkişafına təsir göstərən rəssam Luka Leyden olmuşdur (1494 – 1533). O, öz müasirləri kimi rəsmlərini mis üzərinə köçürərək qravüralar yaradırdı. Dahi Holland rəssamı Rembrant Van Reyn (1603–1669), incəsənətin bu sahəsində qravüranın davamçısı və novatorlarından biri idi. O, həm rəngkarlıq, həmdə qrafika sənətində bir çox dahi əsərlər yaratmışdır.

Bütün qravüra növlərindən o, əsasən oforta daha çox üstünlük verirdi.

Rəngkarlıq və rəsm ustası, ofort işləyərkən ton və yarımtonları, işıq və kölgəni planlı şəkildə göstərə bilirdi. Xətləri isə sərbəst və yüngül formada işləyirdi. XVIII əsrin əvvəllərində qravüra sənətinə maraq azalmağa başlayır. Bir çox rəssamlar bu vəziyyəti aradan qaldırmaq üçün yeni texnika və metodlar icad etməyə başlayırlar. Bu proses əsasən XIX əsrin axırı, XX əsrin əvvəllərində Fransada öz əksini tapır. Qrafika sahəsində yeniliklər, həmçinin də linoqravüranın meydana çıxması bu dövrə təsadüf edir. XIX – XX əsrin əvvəllərində təsviri sənətin inkişafı “vəhşi kapitalizm”in hökm sürdüyü bir sıra qərb ölkələrində çox mürəkkəb idi. Bu dövrdə yaşayıb, yaratmış rəssamlar müəyyən siyasi qüvvələr tərəfindən təzyiqlərə məruz qalsalar da kasıb təbəqənin istismarına son qoymaq məqsədi daşıyan, onların mənafeyini qoruyan əsərlərdə öz sözlərini deməyə çalışırdılar.

Demokratik ənənələri özündə əks etdirən sənətkarlardan Qoyya, Domye, Steynlen, Kolvits, Mendes, Pikasso və bir çox qrafik işləri ilə məşhur olmuş “rəssam nəslini” qeyd etmək lazımdır. Bu sənətkarlar, əsasən Latın Amerikası, Meksika, Qərbi Avropada yaşayıb yaratmış, qrafik işləri ilə çox əhəmiyyətli yerlərdən birini tutmuşlar.

Avropada Pikassonun bir sıra illüstrasiya və plakat janrında işlədiyi litoqrafiyaları, Mazerelinin ksiloqrafiyaları, Amerika — Meksika rəssamlarından Mendes, Homes, Qonsalyes, Mexiak və digər rəssamlar, xalq ucun əhəmiyyət kəsb edən mövzularda plakat və linoqravüradan istifadə edərək dəyərli əsərlər yaratmışlar.

Əfsuslar olsun ki, ilk dəfə linoqravüra işlərinin nə vaxt və kim tərəfindən işlənməsi haqqında məlumat yoxdur. Bu dövrü (XIX – XX əsrlər) ümumilikdə qravüra sənətinin keçid dövrü kimi (əsasən linoqravüra üçün) qiymətləndirə bilərik.

Təsviri incəsənətin qrafika sahəsində qravüranın bir çox istiqamət və növləri mövcuddur. Bu növlərdən biri də litoqrafiya adlanır.

Litoqrafiya səthi çap növüdür, əsasən qravüraya aid edilir. Onun əsasını üzərində hər hansı bir rəsm çəkilmiş xüsusi daşın kimyəvi məhlullarla reaksiyaya girməsi təşkil edir. O, yağlı və sulu maddələrə əks təsir göstərməyə əsaslanır. Təsvir daşın səthindən çap olunduğu üçün hamar çap növü adlanır.

Adından da bəlli olduğu kimi, yunanca “litos” — daş, “grapho” isə yazmaq deməkdir. O, hər hansı bir qrafik əsərin reproduksiya formasıdır. Litoqrafiyanı avtolitoqrafiya da adlandırırlar.

“Avtolitoqrafiya” yunan sözü olub “avto, litho, grapho”, yəni “özüm daş üzərində çəkirəm” deməkdir.

Bəs litoqrafiyanı avtolitoqrafiyadan fərqləndirən nədir?

Rəssam tərəfindən işlənmiş hazır rəsmi daş üzərinə həkk edən (köçürən; orijinalı tam dəqiqliyi ilə göstərmək şərti ilə) litoqrafiya ustası olur, rəssam (müəllif) özü isə bu prosesdə tamamilə iştirak etmir. Bu üsulla yaranan əsərlər litoqrafiya adlanır.

Lakin avtolitoqrafiyada deyilənlərin tam əksi olaraq, rəssam kənardan heç bir ustanın köməkliyi olmadan, fiziki və yaradıcı işləri şəxsən özü icra edir. Sənaye litoqrafiyasının inkişaf etməsinə baxmayaraq, avtolitoqrafiya bəzi sənətkarlar arasında öz aktuallığını itirməyib. Müasir zamanımızda da avtolitoqrafiyaya müraciət edən rəssamlar yaratdıqları əsərləri daş üzərinə köçürərək bu sənəti davam etdirirlər.

Litoqrafiya texnikasının yaranmasından 200 il keçməsinə baxmayaraq, onun iş metodlarında (çap prosesində, texnologiyasında) kəskin dəyişikliklər olmamışdır. Yalnız təbii daş ağır olduğundan sənaye və poliqrafiya işləri üçün o, alüminium və ya sinkdən hazırlanmış nazik metal lövhələrlə əvəz edilmişdi**.**

**Ədəbiyyat:**


1. Западноевропейская графика XV-XX веков – М.: Искусство, 1985;
2. Искусство Азербайджанской ССР – М.: Аврора;
3. Культура и искусство России XIX века – М.: Искусство, 1985;
4. Левитан Е. Что такое гравюра – М.: Изобразительное искусство, 1985;
5. Советская графика – М.: ГТГ, 1973;
6. Современная графика капиталистических стран Европы и Америки – М.: Изобразительное искусство, 1959;
7. Тирова В.В. Что такое гравюра – М.: Изобразительное искусство, 1986;
8. Урапковский М. Письма к начинающему художнику – М.: 1959;
9. Школа изобразительного искусства – М.: изд-во Академии Художеств СССР, 1963.



**Наргиз Мамедова**


**Эстамп в изобразительном искусстве**

**Резюме**


В статье предоставляется информация об историческом развитии эстампа в изобразительном искусстве. Рассматриваются также виды и методы печати гравюрных работ, в частности о "литографии", которая является одним из видов эстампа.



**Ключевые слова:** изобразительное искусство, графика, гравюра, станок, камень, линогравюра.



**Nargiz Mammadova**


**Printmaking in fine art**

**Summary**


The article introduces the information about historical development of the prints in fine Arts. Also are examined types and methods of printing of engraving works. Specifically is examined "lithography" – which is one of kinds of printmaking.



**Keywords:** the fine arts, drawing, engraving, bench, stone, linoengraving.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 08.04.2013**
**Məqalənin təkrar işlənməyə göndərilmə: 15.04.2013**
**Məqalənin çapa qəbul olunma tarixi 13.06.2013**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:** Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Xəzər Zeynalov
**ADMİU-nun Elmi Şurasının 08 iyul 2013-cü il, 09 saylı qərarı ilə çap olunur.**